**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# ŞƏKİ RAYONUNUN ƏRAZİ PLANLAŞDIRILMASININ TURİZM TƏSƏRRÜFATININ İNKİŞAFINA TƏSİRİ

İxtisas: 5402.01–Tarixi coğrafiya, siyasi və rekreasiya coğrafiyası

Elm sahəsi: Coğrafiya

İddiaçı**:** **Nofəl Bünyami oğlu Ərtünov**

Fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün
təqdim edilmiş dissertasiyanın

**AVTOREFERATI**

**Bakı – 2025**

Dissertasiya işi Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi akad. H.Ə.Əliyev adına Coğrafiya İnstitutunun "Azərbaycanın iqtisadi və siyasi coğrafiyası" şöbəsində yerinə yetirilmişdir.

Elmi rəhbər: coğrafiya elmləri doktoru, dosent
**Nəriman Əziz oğlu Paşayev**

Rəsmi opponentlər: coğrafiya elmləri doktoru, professor
**Tapdıq Güləhməd oğlu Həsənov**

coğrafiya üzrə fəlsəfə doktoru, dosent
**Samirə Oqtay qızı Ələkbərova**

coğrafiya üzrə fəlsəfə doktoru
**Sara Hikmət qızı Bağırlı**

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Elm və Təhsil Nazirliyi akad. H.Ə.Əliyev adına Coğrafiya İnstitutunun nəzdində fəaliyyət göstərən BFD 3.16 Birdəfəlik dissertasiya şurası.

Dissertasiya şurasının sədri: coğrafiya elmləri doktoru, dosent
**Məlikmməmməd Xanoğlan oğlu Məmmədov**

Dissertasiya şurasının elmi katibi: coğrafiya üzrə fəlsəfə doktoru, dosent
**Ziyafət Bilal oğlu Ağayev**

Elmi seminarın sədri: coğrafiya üzrə fəlsəfə doktoru
**Natiq Qubad oğlu Babayev**

# İŞİN ÜMUMİ XARAKTERİSTİKASI

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi.** Respublikamızda müstəqillik illərində aparılan iqtisadi və sosial islahatlar təsərrüfat sahələrinin sahə və ərazi strukturunun eləcə də ərazi planlaşdırılmasının yenidən qurulması, təkmilləşdirilməsi və inkişaf istiqamətində mühüm dəyişikliklərə səbəb olmuşdur. Baş verən dəyişikləri ölkə miqyasında olmaqla bərabər, regional və rayon timsalında görmək mümkündür. Bu baxımdan, Şəki rayonunun ərazi planlaşdırılmasında təsərrüfat sahələrinin mövcud planlama səviyyəsi, onun problemlərinin və perspektivlərinin turizm təsərrüfatının inkişafına təsirinin öyrənilməsi iqtisadi coğrafiya sahəsi üçün mühüm rol oynayır. Sistemin bütün komponentlərinin fasiləsiz və kompleks şəkildə qarşılıqlı əlaqəli olması və Milli İnkişaf Strategiyasını tərkib hissəsini təşkil etməsi ərazi planlaşdırılmasının turizm təsərrüfatının inkişafında rolunun elmi baxımdan tədqiqini aktuallaşdırır.

Son dövrlərdə əhalinin sayının artması və ərazilərin fasiləsiz istifadəsi nəticəsində Şəki rayonunun torpaq ehtiyyatlarında əsaslı dəyişiklər yaratmışdır. Ərazi üzrə həyata keçirilən tədbirlər nəticəsində təsərrüfatın növündən asılı olaraq turizm təsərrüfatını təmin edən xidmətlər, qida, yeyinti və yüngül sənaye məhsullarının istehsalı ilə ona müxtəlif formada təsir göstərməkdədir.

Respublikamızda turizmin inkişafı ilə əlaqədar 2002-2006 və 2010-2015-ci illəri əhatə edən iki Dövlət proqramı və 2016-ci ildə isə turizm sənayesinin inkişaf etdirilməsinə dair Strateji Yol Xəritəsi qəbul edilmişdir. Turizmin strateji yol xəritəsində ölkənin şimal-qərb rayonlarına mədəni-tarixi abidələrin turistlərə aşılanması üçün gündəlik, həftəlik və piyada marşurutlarının təşkili və Azərbaycan, ingilis, rus və ərəb dillərində xəritələrin hazırlanması nəzərdə tutulmuşdur. Həmçinin, proqramda regionlarda yaşayan əhalinin maariflәndirilməsi, bələdçilik və mənzillərin kirayə verilməsi ilə bağlı təlimlərin keçirilməsi, xarici və daxili turistlər üçün kempinq ərazilərinin və turist dayanacaqlarının inkişaf etdirilməsi kimi məsələlər qarşıya qoyulmuşdur. Aparılan tədqiqatlar Şəki-Zaqatala iqtisadi rayonu üzrə təsərrüfatın ayrı-ayrı sahələrinin ərazi təşkilini əhatə etmiş, bu zaman regional xüsusiyyətlər və daxili fərqlər öyrənilmişdir.

Lakin Şəki rayonunda ərazi planlaşdırılması üzrə məsələlərə toxunulmamışdır. Buna görə də, Şəki rayonunda təsərrüfat sahələrinin ərazi planlaşdırılması və turizm təsərrüfatının inkişaf istiqamətinin öyrənilməsi, ayrı-ayrı sahələrin təbii şəraiti, iqtisadi potensialı və perspektivlərinin elmi-nəzəri baxımdan qiymətləndirilməsi müasir dövrümüz üçün olduqca aktualdır. Həmçinin, müasir dövrdə Şəki rayonunda təsərrüfat sahələrinin və onun ərazi planlaşdırılmasının turizm təsərrüfatının inkişafı nöqtəyi nəzərindən təhlili böyük maraq kəsb edir.

**Tədqiqatın məqsədi və vəzifələri.** Şəki rayonunda təsərrüfat sahələrini kompleks şəkildə öyrənmək, inkişaf meyillərini, ayrı-ayrı sahələrin təkmilləşdirilməsi və ərazidən istifadənin genişlənmə arealını müəyyən etmək, eyni zamanda kənd təsərrüfatı, sənaye, sosial və nəqliyyat infrastrukturu sahələrinin turizm təsərrüfatına təsirinin öyrənilmək və bu sahənin ərazi planlaşdırılması və proqnozlaşdırılmasını həyata keçirməkdir.

**Tədqiqatın əsas vəzifələrinə** aşağıdakılar daxildir:

- təsərrüfat sahələrinin inkişafına təsir göstərən ərazidən istifadə, təbii şərait və iqtisadi amillərin təhlil edilməsi;
- tarixi dövrlər ərazində ərazidən istifadənin inkişaf istiqamətlərinin müəyyənləşdirməsi;
- ərazi planlaşdırılması zamanı təsərrüfat sahələrinin formalaşması və inkişaf səviyyəsinin öyrənilməsi;
- ərazi planlaşdırılması zamanı yaşayış məntəqələrinin hündürlük qurşaqları üzrə yerləşməsini və onlar arasındakı təsərrüfat sahələrinin transformasiya və əvəz olunmalarının müəyyənləşdirilməsi;
- ərazidən intensiv istifadənin ərazi planlaşdırılmasında hansı dəyişikləri yaratdığı və bu tendesiyasının turizm sahəsi ilə qarşılıqlı münasibətinin təyin edilməsi;
- təbii fəlakətlərin ərazi planlaşdırılmasına və turizm təsərrüfatına təsirinin öyrənilməsi, tədqiqat rayon üzrə risk xəritəsi modelinin hazırlanması;

**Tədqiqatın metodları.** Dissertasiya işinin hazırlanması zamanı riyazi-statistik, tarixilik, müqayisəli təhlil, kartoqrafik metodlarından istifadə edilmişdir. Bundan başqa, daşqın risk xəritəsinin hazırlanmasında Çox Kriteriyalı Analiz Modelindən (AHP), CİS-də

məkansal təhlil (MT), Model Builder aləti, aerokosmik şəkillərin avtomatik deşifrlənməsi (SVM) və turizm sənayesində gəlirlərin proqnozlaşdırılmasında korrelyasiya analizi, çoxlu reqressiya modelindən və perspektivlərin müəyyən edilməsində isə SWOT analizindən istifadə edilmişdir.

**Müdafiəyə çıxarılan əsas müddəalar**:

1. Ərazi planlaşdırılması və turizm təsərrüfatının qarşılıqlı münasibətlərini müəyyən etmək;
2. Təsərrüfat sahələrinin ərazi planlaşdırılması və onların inkişaf səviyyəsinə görə turizm təsərrüfatını təmin etmə səviyyəsini öyrənmək;
3. Turizm təsərrüfatının perspektiv imkanlarını müəyyən etmək.

**Tədqiqatın elmi yeniliyi:**

- Təsərrüfat sahalərinin, o cümlədən, kənd təsərrüfatının inkişaf modeli hazırlanmış, onun proqnozlaşdırılması aparılmış, məhsul və xidmət sahələri ilə turizmin təmin edilmə və təsir etmə səviyyəsi müəyyən edilmişdir;
- Şəki rayonunda sosial infrastruktur sahələrin ərazi planlaşdırılmasında və inkişafında ərazi inkişaf indeksi hesablanmış, nəqliyyat infrastrukturunun təkmilləşdirilməsinin və inkişaf etdirilməsinin turizmin inkişafında rolu öyrənilmişdir;
- Turizmin ərazi planlaşdırılması tədqiq edilmiş, inkişaf istiqaməti müəyyən olunmuş, modelləşdirmə aparılaraq gəlirlərin proqnozlaşdırılması metodologiyası və tədbiqi verilmişdir;
- Şəki şəhərinin inkişaf dinamikası öyrənilmiş, əhalinin artması və məskunlaşma səviyyəsinə görə torpaqdan istifadədə baş verən dəyişiklər müəyyən edilərək şəhər üzrə urbanizasiyanın ərazi planlaşdırılmasına təsiri, onun genişlənmə istiqaməti və miqyası müəyyən olunmuşdur;
- Təbii fəlakətlərin ərazi planlaşdırılmasına təsiri araşdırılmaqla, əhalinin və yaşayış məskənlərinin riskli sahələrə görə hesablanması aparılmış, sel risk xəritəsi hazırlanmış və bunların turizmin inkişafına təsiri öyrənilmişdir;
- Dövlət proqramı çərçivəsində ərazi planlaşdırılması zamanı baş verən transformasiyalar müəyyən edilmiş və sahələrin perspektiv istiqamətləri göstərilmişdir.

**Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti.** Dissertasiya işinin nəticələri Şəki rayonunda təsərrüfat sahələrinin inkişaf etdirilməsi və bu prosesin səmərəliliyin artırılması baxımından mühüm praktiki əhəmiyyət daşıyır. Dissertasiya işinin materiallarından Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı istiqamətində Dövlət Proqramlarının həyata keçirilməsində, eləcə də yerli icra hakimiyyəti orqanları tərəfindən təsərrüfat sahələrinin inkişafı və ərazi planlaşdırılması məsələlərində istifadə oluna bilər.

**Aprobasiya.** Dissertasiya işinin əsas nəticələri və müddəaları aşağıdakı elmi konfranslarda məruzə edilmişdir: "Azərbaycan Respublikasında demoqrafik inkişaf: əhali məskunlaşmasının perspektivləri və regional problemləri" mövzusunda elmi konfrans (Bakı, 2016), "İnsan və ətraf mühit münasibətləri " mövzusunda elmi konfrans (Bakı, 2017), "Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında təbii təsərrüfat sistemlərinin təşkili və idarə edilməsi" mövzusunda elmi-praktiki konfransı (Bakı, 2022), "Modern problems of Geography: Integration of Science and education" mövzusunda beynəlxalq elmi konfrans (Bakı, 2022), "Modern Problems of Earth Sciences" International Conference of Young Scientists (Tbilisi, 2022), "Пространственная Организация Общества: Теория, Методология, Практика" I Всероссийской конференции с международным участием, посвященной памяти профессора Михаила Дмитриевича Шарыгина, (Perm, 2023), Белорусского Географического Конгресса k 90-Летию Факультета Географии и Геоинформатики Белорусского Государственного Университета и 70-Летию Белорусского Географического Общества (Минск, 2024) və "Third Caucasus Mountain Forum", international scientific conference (Tbilisi, 2023). Ümumilikdə tədqiqat işinin mövzusu üzrə 13 elmi məqalə çap olunmuşdur.

**Tətbiqi.** Tədqiqat işinin əsas nəticələri Azərbaycan Turizm Bürosunda, Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyində, Azərbaycan Respublikasının Dövlət və Şəhərsalma Arxitekturası və ərazi planlaşdırılması haqqında aparılan tədqiqat və praktiki işlərdə istifadə edilə bilər.

**Dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı**. Dissertasiya

işi Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi akad. H.Ə.Əliyev adına Coğrafiya İnstitutunun "Azərbaycanın iqtisadi və siyasi coğrafiyası" şöbəsində yerinə yetirilmişdir.

**Dissertasiyanın həcmi, quruluşu və əsas məzmunu**. Dissertasiya işi giriş, 3 fəsil, nəticə, təklif və istifadə olunmuş ədəbiyyat siyahısından ibarətdir. İşin həcmi 151 səhifədir. İş 3 şəkil, 27 cədvəl, 14 xəritə-sxem, 10 qrafik, 154 adda ədəbiyyat siyahısından ibarətdir. Giriş –5 səhifə, I fəsil –15 səhifə, II fəsil – 78 səhifə, III fəsil–47 səhifə, nəticə–2 səhifə, ədəbiyyat siyahısı–13 səhifədir. Cədvəlsiz, qrafiksiz, şəkilsiz və ədəbiyyat siyahısız 210243 işarədən ibarətdir.

## TƏDQİQATIN ƏSAS MƏZMUNU

**Girişdə** mövzunun aktuallığı və işlənmə dərəcəsi, məqsəd və vəzifələri, metodları, müdafiəyə çıxarılan əsas müddəalar, elmi yeniliklər, tədqiqatın nəzəri və praktiki əhəmiyyəti, aprobasiyası və tətbiqi verilmişdir.

Dissertasiya işinin birinci fəsli "**Ərazi planlaşdırılmasının turizmin ərazi təşkilinə təsirinin nəzəri və metodoloji əsasları**"na həsr olunmuşdur. Bu fəsildə ərazi planlaşdırılmasının öyrənilməsinin əhəmiyyəti, iqtisadi sistemdə yeri, təbii şəraitin və ehtiyyatların turizm təsərrüfatına təsiri və nəzəri-metodoloji məsələlər araşdırılmışdır.

Müasir dövrdə ərazi planlaşdırıması əsas iki istiqamətdə ənənəvi və strateji ərazi planlaşdırıması olaraq davam etmişdir. Planlama aparılan zaman ərazinin əhatəli iqtisadi-coğrafi təhlilini (relyef amili, torpaqdan istifadə, əhalinin gəlirlərinin formalaşması, məşğulluğu, ekosistemə və bioloji müxtəlifliyə təsirlər) zəruri edir.

Respublikamızda N.A.Babaxanov, N.Ə.Paşayev, N.H.Əyyubov, T.G.Həsənov, Z.T.İmrani, R.M.Məmmədov, Z.N.Eminov və digər alimlərin elmi əsərlərində ərazi təşkili məsələləri təhlil olunmuşdur. Buna misal olaraq, N.A.Babaxanov və N.Ə.Paşayev təbii fəlakətlərin təsərrüfatın ərazi təşkilinə təsiri üzrə tədqiqat aparmışlar. Ərazi planlaşdırılmasının nəzəri və metodiki məsələlərinə isə T.G.Həsənov, Y.Kərimlinin, "Regional və şəhər planlaşdırılması, R.M.Məmmədovun "Azərbaycanda landşaft planlaşdırılması" kimi əsərlərində geniş yer

verilmişdir. Təbii ehtiyatlardan istifadə, onların təsərrüfat əhəmiyyəti və iqtisadi qiymətləndirilməsi ilə əlaqədar N.Ə.Paşayev, Z.N.Eminov, R.N.Mahmudov, Z.T.İmrani, F.Ə.İmanov, M.Y.Xəlilov və digər alimlərin tədqiqatlarından istifadə edilmişdir.

Xarici ölkələrdə ərazi planlaşdırılması istiqamətinin və eləcə də ayrı-ayrı sahələrinin tədqiqi ilə məşğul olan alim və mütəxəssislərindən İ.A.Antipin, A.A.Boçarova, L.V.Prasolova, A. Qaponenko, O.B.İvanov, E.M.Buxvald, R.A.Kamaev, N.M. Kudryaşov, N.V.Miroşniçenko, I.V.Komissarova, D.A.Miroşniçenko, O.V. Pelımskaya, O. Y. Şevçenko, V. A. Uşanlı, Sood, S., Ravat, K.Şarma, G. Zonneveld, V. C, Marşal, T. Ustaoğlu, E. Koomen, E. Rouvendal, J. Diller, C. Hoffmann, A.Oberding, S. Humer, A. Batunova, E. Qunko və başqalarını misal göstərmək olar. Yuxarıda göstərilən tədqiqatçılar ərazi planlaşdırımasını müxtəlif aspektlərdə qiymətləndirərək fərqli yanaşmalar təklif etmişlər.

Dissertasiyanın *ikinci fəsli* **"Şəki rayonunun təsərrüfat sahələrinin ərazi planlaşdırılmasının turizmin inkişafına təsirinin iqtisadi-coğrafi əsasları"**na həsr olunmuşdur. Burada ərazi planlaşdırılmasının alt məsələlərinə, o cümlədən, kənd təsərrüfatı, sosial və nəqliyyat infrastrukturu, sənaye və turizm təsərrüfatının ərazi təşkilinə və iqtisadi-coğrafi qiymətləndirilməsinə baxılmışdır.

*Kənd təsərrüfatı.* Turizm və kənd təsərrüfatı arasındakı əlaqə çox şaxəli mürəkkəb strukturdur və fərdi amillərdən təsirlənir. Belə ki, hər iki sahə üçün əhəmiyyətli olan su ehtiyatları, torpaq resurslarının istifadəsi və işçi qüvvəsi kimi amillərin ortaq olması ziddiyyət təşkil etsə də, turistlərin qida məhsulları ilə təminatında kənd təsərrüfatı landşaftları kimi amillər tamamlayıcı rol oynayır.

Rayonun iqtisadiyyatının əsasını kənd təsərrüfatı məhsullarının istehsalı təşkil edir. Belə ki, rayon üzrə ümumi məhsul buraxılışının 41%-i və ya 215 milyon manatı kənd təsərrüfatı məhsullarının payına düşür. Bu da sənaye məhsulları ilə müqayisədə 28% çox deməkdir. Məlum olduğu kimi, kənd təsərrüfatı 2 böyük sahədən–bitkiçilik və heyvandarlıqdan ibarətdir. Rayon üzrə bitkiçiliyin ümumi əkin sahəsi 57 min hektar təşkil edir. Bitkiçilik regionun kənd təsərrüfatının 51%-ni və ya 109,5 mln manatını, heyvandarlıq isə 49%-ni və ya 105,6 mln

manatını təşkil edir. Kənd təsərrüfatı turizmə istehsal etdiyi məhsullara birbaşa və dolayı yolla təsir göstərməkdədir.

Tələbatın ödənilməsi nöqteyi nəzərindən kənd təsərrüfatında kartof, tərəvəz, bostan, ət və yumurta istehsalı Respublika üzrə istehsal normaları ilə müqayisəsi aparıldıqda bu göstəricilərin müvafiq olaraq 51%, 59%, 34%, 48% və 75% təşkil etdiyi məlum olmuşdur.

Tədqiqat rayonunda kənd turizminin inkişafı üçün geniş imkanlar olsa da, sahənin potensialından arzu olunan səviyyədə istifadə edilmir. Rayonun ayrı-ayrı kəndlərində fermer təsərrüfatları fəaliyyət göstərir, lakin fermerlərin turizm təsərrüfatı istiqamətində ciddi şəkildə nəaliyyətlər əldə olunmamışdır. Belə ki, kənd təsərrüfatı kənd turizmi və aqroturizm kimi turizm növlərin yaradılması ilə turizm təsərrüfatına təsir göstərməkdədir.

Cədvəl 1

Şəki rayonunda turizm təsərrüfatına birbaşa təsir göstərən məhsulların adam başına düşən istehsal göstəriciləri

| | Adambaşına düşən istehsal (Respublika ilə müqayisədə) | | | | Turistlərin sayı əlavə edildikdən sonra (Respublika ilə müqayisədə) | | | | Respublika üzrə adam başına düşən məhsul istehsalı | |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| İllər | 2015 | | 2022 | | 2015 | | 2022 | | 2015 | 2022 |
| Adı | kq/nəfər | % | kq/nəfər | % | kq/nəfər | % | kq/nəfər | % | kq/nəfər | |
| buğda | 650 | 370% | 251 | 146% | 607.5 | 345% | 242 | 140% | 175.9 | 172.5 |
| kartof | 58 | 66% | 58 | 54% | 53.7 | 61% | 55 | 51% | 88 | 107 |
| tərəvəz | 122 | 92% | 110 | 61% | 113.5 | 85% | 106 | 59% | 133 | 181 |
| bostan | 23 | 45% | 16 | 34% | 21.1 | 41% | 16 | 34% | 51 | 47 |
| meyvə | 113 | 122% | 157 | 126% | 105.6 | 114% | 151 | 121% | 93 | 125 |
| üzüm | 23 | 144% | 23 | 110% | 21.5 | 134% | 23 | 110% | 16 | 21 |
| ət | 31 | 100% | 31 | 50% | 28.8 | 93% | 30 | 48% | 31 | 62 |
| süd | 308 | 153% | 299 | 133% | 287.3 | 143% | 288 | 128% | 201 | 225 |
| yumurta | 137 | 85% | 154 | 77% | 128.2 | 80% | 149 | 75% | 161 | 200 |

**Mənbə:** Azərbaycan ərzaq balansları, ADSK 2024, Statistik məlumatları əsasında müəllif tərəfindən hazırlanmışdır.

Kənd turizmi çərçivəsində aşağıda qeyd olunan turizm fəaliyyətləri üçün rayonda əsas turizm mərkəzlərinin fəaliyyəti ilə yanaşı kənd turları və turist marşurutları təşkil oluna bilər:

• *Əkin təcrübəsi:* Burada turistlərə kənd təsərrüfatı məhsullarının əkilmə qaydaları, bağların salınması, gündəlik məhsulların hazırlanması, bal istehsalı və sair mövsümi fəaliyyətlər göstərilə bilər

• *Məhsul yığım təcrübəsi:* Meyvə və tərəvəz məhsullarının yığılması ilə yanaşı, üzümün birbaşa istehlaka və ya şərab istehsalına görə çeşidlənməsində iştirak edə bilərlər.

• *Heyvandarlıq:* Ət istehsalı, südün sağılması, yağ və pendir çeşidlərinin hazırlanması, arıçılıq, balıqçılıq təsərrüfatı və heyvanların yemlənməsi.

*Nəqliyyat və Sosial infrastruktur* sahələrlə təmin olunma, kəmiyyət və keyfiyyət göstəriciləri rayonun iqtisadi inkişafını qiymətləndirilir və turizm təsərrüfatına təsir göstərir. Şəki rayonunun nəqliyyat infrastrukturu avtomobil, qismən dəmir və hava yolları, kanallar və boru kəməri, avtovağzal, anbarlar, yük terminalları kimi infrastrukturlar daxil olmaqla sabit qurğulardan ibarətdir.

Rayon üzrə istifadədə olan avtomobil yolunun ümumi uzunluğu 462 kilometrdir və bu da yeni təsnifata uyğun olaraq texniki göstəricilərinə görə 5 kateqoriyaya ayrılır: Nəqliyyat sektorunun qeyd olunan 1-ci kateqoriyaya 2 km, 2-ci kateqoriyaya 53 km, 3-cü kateqoriyaya 97 km, 4-cü kateqoriya 275 və sonuncu kateqoriyaya isə 35 km yol düşür[1].

Rayonun sosial infrastrukturu mənzil kommunal, kurort-rekreasiya, məişət xidməti, mədəni-maarif, ictimai iaşə, ticarət, nəqliyyat və rabitə, səhiyyə və digər sahələrlə təmsil olunmuşdur. Kommunal xidmətlər rayon əhalisinin su, kanalizasiya və rabitə ilə təmin olunmasının əsas göstəricilərdir. Şəki rayonunda əhalinin su ilə təminatında yerli bulaq və artezian hövzələri əsas yer tutur. Rayonda əhalinin içməli su təminatında son illərdə artezian hövzələrinin yaradılması istiqamətində-I Biləcik, Bideyiz, Əliyar, Baş Göynük, Aydınbulaq və İbrahimkənd kəndlərində qazılıb istifadəyə verilmiş artezian quyuları mühüm yer tutur. İçməli su təchizatının və kanalizasiya sistemlərinin yaxşılaşdırılması sahəsində isə 2020-ci ildə 18,31 km uzunluğunda su xətti, 4.66 km uzunluğunda içməli su ev

[1] Azərbaycanda nəqliyyat, 2023 Bakı, 86 s

bağlantıları, 16,89 km uzunluğunda kanalizasiya xətti, 11 km uzunluğunda kanalizasiya ev birləşməsi çəkilmişdir.

Tədqiqat rayonunda D.L.Lopatnikov tərəfindən təklif olunan regional inkişaf indeksindən istifadə edərək Respublika və Şəki-Zaqatala iqtisadi rayonu üzrə indeksin göstəriciləri hesablanmış və ətraflı şəkildə analiz olunmuşdur. Hesablama qaydası aşağıda qeyd olunan riyazi metodla həyata keçirilmişdir:

$$I = 0.1 * \sqrt{\frac{V^2}{N * S}} \tag{1}$$

Burada:

V – Rayonun ümumi məhsul buraxılışının həcmi (mln. man);

N- Rayonun əhalisinin ümumi sayı (min nəfər);

S- Rayonun ümumi sahəsini (min km$^2$) göstərir.

Təhlil göstərir ki, rekreasiya-turizm imkanlarına və Dövlət proqramları çərçivəsində həyata keçirilən tədbirlərə baxmayaraq Şəki rayonun inkişaf indeksi 2,5-ə bərabərdir. Bu rəqəm müvafiq olaraq respublikanın digər regionlarının ümumi orta göstəricilərindən xeyli aşağıdır. Bu göstərici rayonun bir sıra rayonlarından, o cümlədən Zaqatala, Qəbələ və Balakən inzibati rayonlarından xeyli geri qalır.

*Sənaye sahələri.* Turizmin inkişafının əsas meyarlarından biri sektorun sənaye məhsulları ilə təmin edilməsi səviyyəsidir. Bu qarşılıqlı münasibətlər sənayenin təqdim etdiyi məhsulların daha ucuz və əlçatan olması ilə nəticələnir ki, turizm sahəsinin gəlirləri ilə xərcləri arasında aralıq müsbət istiqamətdə inkişaf etmiş olur.

Şəki rayonu sənayenin əsasən 2 növü ilə (yeyinti və yüngül) təmsil olunur. Həm yeyinti həm də yüngül sənaye sahələri turizm sektoruna məhsul verməklə yanaşı, xidmət göstərməkdədir. Şəki rayonu üzrə ümumi məhsul buraxılışının həcmi 508,9 mln manat təşkil edir ki, onun da 7,9 %-i sənaye istehsalının payına düşür. Yüngül sənaye istehlak malları istehsalında əsas yer tutmaqla əhalinin parça və palaza, tikili mallara, ayaqqabı, qalantereya məhsullarına və qab-qacağa olan tələbatını ödəyir və əməktutumlu sahə kimi əmək ehtiyyatlarının istehsala cəlb edilməsində müstəsna rol oynayır.




**Şəkil 1. Tibbi infrastruktur sahələri istisna olmaqla Şəki rayonunda sosial infrastruktur sahələrinin mövcud vəziyyəti.**

**Mənbə:** Azərbaycanın Milli Atlası və Azərbaycanın regionları 2024 dövlət statistik məlumatları əsasında ArcGİS proqram təminatında Müəllif tərəfindən hazırlanmışdır.

Tədqiqat rayonunda turizm təsərrüfatını yeyinti sənayesi əsasən, şərab istehsalı, un və un məmulatları, çörək və çörək-bulka, tort, şirniyyatlar o cümlədən paxlava məhsulları, Şəki halvası, bamiyə, mindal, təlhalva, qırmabadam, düymə və qozlu şirni, noğul, küncüdlü yerfısdığı ilə təmin edir. Yüngül sənaye sahəsi isə ipək parçalar, kəlağayı, araxçın, xalça istehsalı, zərgərlik məmulatları, musiqi alətləri və idman malları kimi məhsullarla təmin etməklə yanaşı, dərziçilik və ayaqqabı təmiri kimi sahələr ilə də xidmət göstərir. Şəki rayonunda 2011-2021-ci illərdə istehsal olunan sənaye məhsulun həcmi 3 dəfədən çox artıb. Bu da, Respublika üzrə ümumi sənaye məhsulunun 0,12 %-ni, Şəki-Zaqatala üzrə isə 14,6%-ni təşkil edir.




**Şəkil 2. Şəki rayonun sənaye sahələri xəritəsi**

**Mənbə:** Azərbaycanın Milli Atlası, Azərbaycanın sənayesi 2024 və Azərbaycanın regionları 2024 dövlət statistik məlumatları əsasında ArcGİS proqram təminatında müəllif tərəfindən hazırlanmışdır.

*Turizm sənayesi.* Əhalinin gəlirlərinin artması onun mədəni və həyat səviyyəsinin yüksəlməsinə səbəb olur ki, nəticədə başqa ölkələrə və xalqlara marağının genişlənməsi, turist fəaliyyətlərinin sayının artırması və bu sənayenin formalaşması baş verir[2]. Tədqiqat rayonunda turizimin dayanıqlı inkişafının təmin edilməsi məqsədi ilə Azərbaycan Respublikası Prezidenti tərəfindən 2016-cı il 01 sentyabr tarixli "Azərbaycan Respublikasında turizmin inkişafı ilə bağlı əlavə tədbirlər haqqında" sərəncamı imzalmış və 2016-cı ilin 06 dekabr tarixində Azərbaycan Respublikasında ixtisaslaşmış turizm

[2] Eminov Z.N. (2015). Kurort-turizm təsərrüfatı, Azərbaycan Respublikasının coğrafiyası. İqtisadi, sosial və siyasi coğrafiya . Bakı: 271-277

sənayesinin inkişafına dair Strateji Yol Xəritəsi qəbul olunmuşdur. Turizmdə bazarın inkişafı və turizm məhsulunun satılmasında əsas şərtlərdən biri turist tələbinin qarşılanmasıdır. Şəki rayonunda turizm sənayesinin formalaşmasında və mehmanxana gəlirlərinin artmasında iki amil əsas rol oynayır:

- Əcnəbilər və vətəndaşlığı olmayan şəxslərin səfər etməsi
- Ölkə vətəndaşlarının səfəri

Şəki rayonunda turizm təsərrüfatında gəlirlərin formalaşmasına təsir edən amillər arasında əlaqəni müəyyən etmək üçün korrelasiya analizindən istifadə edilmişdir. Aşağıdakı düsturda korrelasiyanın hesablanma qaydası və əldə olunan əmsalın izah edilməsi göstərimşdir:

$$R(i) = \frac{\sum_{k=1}^{m}(x_{k,i} - \bar{x}_i)(y_k - \bar{y})}{\sqrt{\sum_{k=1}^{m}(x_{k,i} - \bar{x}_i)^2 \sum_{k=1}^{m}(y_k - \bar{y})^2}} \qquad \textbf{(2)}$$

Burada, m nümunələrin sayıdır, (Ri) i xüsusiyyəti ilə sinif standartı arasındakı əlaqəni ölçür. Ki, $X_{ki}$ nümunəsinin i xüsusiyyətinin xüsusiyyət qiymətidir. $X_i$ i xüsusiyyətinin orta qiymətidir.$Y_k$ k nümunəsinin qiymətini, y isə k nümunəsinin sinif standart orta qiymətini təmsil edir. Tərif düsturuna görə (Ri) dəyişkənliyi -1 ilə 1 arasındadır.

Şəki rayonunda turizm sənayesində mehmanxana və mehmanxana tipli müəssisələrin gəlirlərinin formalaşmasında korrelyasiyaya baxdıqda gəlirləri ilə otel nömrələri, işçilərin sayı, əcnəbi və daxili turistlər arasında orta dərəcədə əlaqə olduğunu və bunun 0,42-0,52 arasında dəyişdiyi görülməkdədir (Şəkil 3).




**Şəkil 3. Turizm təsərrüfatında gəlirlərin formalamasına təsir göstərən amillərin istilik xəritəsi (heatmap)**

**Mənbə:** Azərbaycanda turizm 2024, statistik məlumatları əsasında proqramlama dilində korrelasiya metodundan istifadə edərək müəllif tərəfindən hazırlanmışdır.

-İşçilərin digər amillərlə qarşılıqlı korrelyasiya analizinə baxdıqda birdəfəlik tutum, otel nömrələrinin sayı ilə orta, ümumi turist sayı ilə yüksək əlaqə olması müşahidə olunur.

-Birdəfəlik tutumun və nömrələrin sayında isə ən yüksək korrelyasiya ixtisaslı kadrlara görə olduğundan onlar arasında əlaqə orta olmaqla 0.64-0.70 arasında dəyişir. Əsas amil turistlərin sayının artıb azalmasıdır.

Tədqiqat rayonunda otellərin birdəfəlik tutumu, otel otaqlarının sayı, işçilərin sayı, xarici turistlərin sayı, daxili turistlərin sayı kimi amillər əsas götürülərək turizm təsərrüfatında gəlir poqnozlaşdırılması üçün regreasiyon analizindən istifadə edilmiş və

modelləşdirmə aparılmışdır. Model nəticəsində gəlirlərə ən çox təsir göstərən amillərin xarici turistlərin sayı və otaq nömrələrinin sayı olması müəyyən olunmmuşdur.

Dissertasiya işinin üçüncü fəsli **“Şəki rayonunun ərazi planlaşdırılmasının problemləri və perspektivləri”**-nə həsr olunmuşdur. Bu fəsildə turizmin inkişaf perspektivləri, təbi fəlakətlərin ərazi planlaşdırılmasına təsiri, Şəki şəhərinin urbanizasiya səviyyəsinin və genişlənmə istiqamətinin müəyyən edilməsi və “Regionların sosial iqtisadi inkişafı” Dövlət proqramları çərçivəsində həyata keçirilən tədbirlərin ərazidən istifadə təsirinin məsafədən zondlama üsulu ilə tədqiqinə baxılmışdır.

Respublikamızda tarixi və mədəniyyət abidələri dünya, ölkə və yerli əhəmiyyətli olmaqla üç qrupa ayrılmışdır. Şəki rayonunda ümumilikdə 84 tarixi və mədəni abidə qeydə alınmışdır ki, onun da biri arxeoloji və memarlıq olmaqla dünya əhəmiyyətli, 21 arxeoloji, 13 memarlıq və bir bağ-park, monumental və xatirə abidələr olmaqla ölkə əhəmiyyətli, 10 arxeoloji, 33 memarlıq və 4 bağ-park, monumental və xatirə abidələr olmaqla yerli əhəmiyyətli kateqoriyaya aid edilmişdir[3].

Turizm agentliklərinə görə Şəki rayonunda ən çox satılan turpaketlər aşağıdakılardır:

1. Şamaxı-Qəbələ-Şəki
2. Qəbələ-Lahıc-Şəki
3. Azərbaycan-Gürcüstan-Ermənistan
4. Ümumi Azərbaycan turu
5. Caspian Pearl turu
6. Agrotur və s.

Müştəri məmnuniyyətinə baxdıqda görürük ki, xidmət və qonaqlama yüksək səviyyədə olduğu halda, qiymətlərdə xüsusən yemək və digər qidaların yüksək olması gözləniləndən olduqca yuxarıdır. Bunu beynəlxalq turizm agentiklərindən olan tripadvisor. com veb saytında aydın görmək mümkündür. Yerli sakinlər öz

[3] Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2001-ci il 2 avqust tarixli 132 nömrəli qərarı ilə təsdiq edilmişdir.

evlərini kirayə verməkdə olduqca maraqlıdır. Otel qiymətləri ilə fərdi evlərin kirayəsi arasındakı
qiymət fərqi çox azdır. Rayonda əsasən Şəki şəhərində, kəndlərdən isə Kiş, Abbas, Oxud, Baş Küngütdə kirayə evlər turizstlərə təqdim olunur.

*Təbii fəlakətlərin ərazi panlaşdırılmasına və turizm təsərrüfatına təsiri*. Şəki rayonu üzrə sellərin əhalinin təsərrüfat sahələrinə və ərazi təşkilinə təsiri haqqında bir sıra tədqiqatlar həyata keçirilmiş və bu istiqamətdə mühüm nəticələr əldə edilmişdir. Rayonu üzrə təbii fəlakərlərin və sellərin təsərrüfata və ərazi təşkilinə təsirinin öyrənilməsində Budaqov B., Babaxanov N., Paşayev N., Əlizadə E., Mahmudov R., Tarixazər S. və başqalarının əsərləri və tədqiqatları mühüm rol oynayır.

Şəki rayonun dağıdıcı və selli çaylarından olan Kiş və Şin çayları rayonun ərazisindən keçir və hövzələrində məskunlaşan əhali mütəmadi olaraq sellərin təsirindən müxtəlif şəkildə ziyan çəkir. Xüsusilə Şinçay və onun qollarında (Qara, Çaxıl, Qozludərə) baş verən sellər Baş Göynük, Şin, Baş Layıski, Aşağı Şabalıd və digər kəndlərə; Kişçay və onun qollarında (Damarçın, Donuzca, Qaynar, Sarıgüney, Çuxadurmaz və b.) baş verən sellər Şəki şəhərinə, Şəki, Kiş, Oxud, Baltalı, Qoxmuq, İncə və digər kəndlərə ziyan vurur[4].

Ələkbərova S.O., vb.[5] hövzə təhlili prinsipinə əsaslanaraq sel təhlükəliliyinin iqtisadi-coğrafi qiymətləndirilməsini aparmış, Şəki rayonunda Kiş və Şin çayları hövzələrinin 2009-cu ildə 51,6 min nəfərə bu və digər şəkildə zərər vurduğunu müəyyən etmişlər.

[4]Ализаде Э.К., Кулиева С.Ю., Тарихазер С.А. (2005). Оценка степени пораженности геокомплексов южного склона Большого Кавказа оползневыми прочесами / Şəki-Zaqatala bölgəsinin təbii dağıdıcı hadisələri və regionun inkişafının ekocoğrafi problemlərinə həsr olunmuş elmi-praktik konfransın materialları, c. 63-65. Шеки

[5] Ələkbərova S, Məmmədov S, Həmidova Z, İsmayılova L. (2017). Selli çay hövzələrində əhali məskunlaşmasina sel təhlükəsi təsirinin qiymətləndirilməsi (Kişçay-Dəmiraparançay hövzələrinin timsalında), Coğrafiya və təbii resurslar, №1, (5), səh 21-27

Paşayev N.Ə[6]., təbii fəlakətlərin təsərrüfatın ərazi təşkilinə təsirini öyənmiş, dəymiş ziyana görə rayonlaşdırılması və iqtisadi coğrafi qiymətləndirilməsini aparmışdır. Bu tədqiqatda analitik iearxiya prosesi (AHP) metodundan istifadə edilərək ərazinin sel riski xəritəsi hazırlanmış, risk altında olan ərazilərin ümumi sahəsi hesablanmış və riskin səviyyəsinə görə aşağı, orta və yüksək olmaqla üç kateqoriyaya bölünmüşdür. Bu məqsədlə Copernicus platformasından ərazidən istifadə xəritəsi (əldə olunub 01.01.2018-2019), World climate data platformasından ərazi üzrə illlik yağıntının miqdarı (2010-2020) və ərazi üzrə yüsəklik modelində isə OSM (open street map) platformasından istifadə edilmişdir.

Modelin qurulmasında ərazinin yüksəlik modeli (DEM), ərazinin meyilliyi (Slope), ərazinin mövcud istifadəsi (LC), yağıntıların paylanması (Prc, burada sellərin və daşınqların artması və intensivliyinə görə aprel ayı[7] əsas götürülmüşdür) və çay şəbəkəsinə olan məsafə nəzərə alınmışdır. Modelin qurulma prinsipi ardıcıl olaraq verilən məlumatların daxil edilməsinə görə aparılır və Weighted Overlay (WO) metodu işlənmişdir.

Rayonun ümumi ərazisinin 13%-i və ya 304,3 $km^2$-i birinci kateqoriyaya uyğun gəlir. Rayonun əhalisinin 3,9%-i və ya 6687 nəfəri, eləcədə üç yaşayış məntəqəsi sel riskinin aşağı olduğu sahədə yerləşir. İkinci kateqoriyaya kənd təsərrüfatı sahələri və nəmişlik sahələr daxildir ki, bu da ərazinin 29%-ni və 703 $km^2$-ni əhatə edir. Riskin orta dərəcə olaraq qiymətləndirilən sahəsində əhalinin 62,8%-i (107,21 min nəfər) və 11 inzibati ərazi dairəsi (Şəki şəhəri daxil olmaqla) yerləşir. Üçüncü qrupa isə ümumi sahənin 58 %-i və ya 1388,5 $km^2$-i düşür ki, bu da əsasən su hövzələri və çay şəbəkəsinə yaxın əraziləri əhatə edir. Sonuncu bölgüyə isə rayonun əhalisinin 33,3%-i və 20 inzibati ərazi dairəsi daxildir. Ümumi götürüldükdə rayonun 50-60 faizi sel və daşqına qarşı həssaslığı yüksəkdir və buna müvafiq olaraq yaşayış məntəqələrinin, sənaye sahələrinin və turizm

---

[6] Paşayev N.Ə (2018) Azərbaycan Respublikasında təbii fəlakətlərin təsərrüfata iqtisadi-coğrafi qiymətləndirilməsi. Bakı "Avropa" nəşriyyatı, s 372.
[7] Mahmudov R.N. (2006). Hidrometerologiya, iqlim dəyişmələri, təbii fəlakətlər və həyat. Bakı, səh. 75.

obyektlərinin məruz qalma səviyyəsi və zərərin miqdarı daha çox olması proqnozlaşdırılır.

*Şəki şəhərinin urbanizasiya səviyyəsi və genişlənmə istiqaməti.* Tədqiqatın məzmunu baxımından ilk dəfə olaraq şəhər üzrə ərazidən istifadənin istiqaməti və genişlənmə miqyasının öyrənilməsi məqsədilə 2016 və 2022-ci illər üzrə Change detection analyze (Dəyişiklərin müəyyən edilməsi) aparılmışdır. Bu məqsədlə Azersky peykindən istifadə edilmiş, SVM metodu ilə nəzarətli sinifləndirilmə tədbiq edilmişdir.

**Cədvəl 2**

**Ərazidən istifadənin kəmiyyət göstəriciləri (2016-2022-ci illər)**

| Sinifin adı | 2016 | | 2022 | | Fərq | | ARC (İllik dəyişmə dərəcəsi) |
|---|---|---|---|---|---|---|---|
| | Sahə(ha) | % | Sahə(ha) | % | Ha | % | % |
| Yaşayış sahələri | 727,7 | 22,4 | 1196,7 | 36,8 | 469 | 14,4 | -16,7 |
| Meşə | 1104,7 | 34 | 1071 | 32,9 | -34 | -1,1 | -4,1 |
| Yararsız sahələr | 654,4 | 20,1 | 525,5 | 16,2 | -129 | -3,9 | 0,06 |
| Kənd təsərrüfatı | 665,4 | 20,5 | 367,6 | 11,3 | -298 | -9,2 | 16,8 |
| Su | 98 | 3 | 89,6 | 2,8 | -8 | -0,2 | 50 |
| Cəm | 3250,2 | 100 | 3250,4 | 100 | | | |

**Mənbə:** Azərsky-ın 2016-2022 ci il peyk məlumatlarından istifadə edilərək müəllif tərəfindən SVM metodu ilə nəzarətli sinifləndirilməsi və illik dəyişmə dərəcəsi hesablanmışdır.

Şəhər üzrə əldə olunan peyk şəkillərinin deşifrələnməsindən sonra ümumi ərazi üzrə ayrı-ayrı sahələrin payında ciddi dəyişiklər baş vermişdir. Beləki yaşayış məntəqələrinin sahəsi altı il ərzində artmağa başlamışdır. 2016-cı ildə yaşayış məntəqləri (bura daxildir: yaşayış məskənləri, sosial infrastruktur sahələri, sənaye müəssisələri və tikili binalar) şəhərin 22,4%-ni əhatə edirdisə, 2022-ci ildə bu göstərici 39% artmışdır.

Meşə ehtiyyatlarının ümumi sahəsində azalma müşahidə olunmaqdadır. Belə ki, meşələr ümumi ərazinin 2016-cı ildə 34% və ya 1105 ha ərazisini əhatə edirdisə, 2022-ci ildə bu rəqəm şəhər və şəhər ətrafı sahələrdə 32,9%-ə qədər kəskin azalmışdır.

Quraq və yararsız sahələrin miqyasında Şəki şəhəri üzrə azalma qeydə alınmışdır. 2016-cı ildə 654,4 ha olan bu ərazilər şəhərin 20,1 %-ni əhatə etsə də, 2022-ci ildə bu göstərici kəskin azalaraq 128,9 ha olub ki, bu da ərazi üzrə 16,2 % təşkil etmişdir.

Yararsız və quraq olaraq sinifləndirilən ərazilərdə 20% azalma müşahidə edilib. Ərazinin kənd təsərrüfatı məqsədilə istifadəsində 2016-2022-ci illər ərzində azalma görülməkdədir. Kənd təsərrüfatının ümumi göstəriciləri, o cümlədən, əkin sahələri 2016-cı ildə 665,4 ha idisə, növbəti altı ildə 367,6 ha-ya qədər azalmışdır. Buda qeyd olunan dövrdə əkinlərin 45% və və ya 297,8 ha azalması deməkdir.

Lakin su hövzələrinin ümumi sahəsində ciddi şəkildə dəyişiklik, əvəz olunma və artıb-azalma tendesiyası müşahidə olunmamışdır. Şəhər ərazisindən axan çayın sahəsi 2016-cı ildə ərazinin 3%-ni (98 ha) təşkil edirdisə, 2022-ci ildə bu göstəricilər müvafiq olaraq 2,8 % (89,6 ha) olub, olduqca zəif və nəzərə çarpacaq dərəcədə deyil.

Şəki rayonunda əhalinin artması ilə müvafiq olaraq şəhər əhalisinin payının artması, kənd əhalisinin şəhər və şəhər ətrafı ərazilərdə cəmnlənməsi ilə onun genişlənməsi müəyyən edilmişdir. Şəhərin genişlənməsi əvvəllər əhalinin seyrək yaşadığı cənub və cənub–şərq istiqamətində daha çox qeydə alınmışdır. Bunun başlıca səbəbi yeni yaşayış sahələrinin bu ərazilərdə salınması, xidmət və yaşayış sahələrinin tikilib istifadəyə verilməsidir. Urbanizasiya və iqtisadi inkişafın artım tempinə uyğun olaraq “mərkəzə qaçma” müşahidə olunub və bunun nəticəsində 2016-2022-ci illərdə ərazindən istifadənin strukturunda nəzərə çarpacaq dərəcədə dəyişiklər baş vermişdir.

*“Regionların sosial iqtisadi inkişafı”.* Respublikamızda əhalinin sosial rifahının yaxşılaşdırılması, regionların sosial iqtisadi inkişaf səviyyəsini Bakı şəhərinin orta inkişaf göstəricilərinə uyğunlaşdırılması məqsədilə 2004-2008, 2009-2013, 2014-2018 və 2019-2023 illər arasında beş ili əhatə etməklə dörd-“Regionların sosial iqtisadi inkişafı” Dövlət proqramı qəbul edilmişdir. Proqram çərçivəsində Şəki rayonu üzrə icra olunan tədbirlər və onun

nəticəsində ərazidə torpaqdan istifadənin strukturunda baş verən dəyişiklər və əvəz olunmalar təhlil olunmuşdur.




**Şəkil 4. Peyk şəkillərinin deşifrələnməsində sonra alınan nəticələr: a) 2001-ci ilin məlumatı, b) 2020-ci ilin məlumatı**

**Mənbə:** Landsat 5 (2001) və Landsat 8 (2020) peyk məlumatlarının deşifrələnməsi metodu ilə ArcGis 10.2 proqramında müəllif tərəfindən hazırlanmışdır.

Şəkil 4-də sinifləndirilmədən sonra alınan nəticələr göstərilmişdir. 2001-2020-ci illər ərzində ərazidən istifadənin kateqoriyaları üzrə ümumi göstəricilərinə nəzər yetirək:

a) Torpaq örtüyünün istifadəsində kənd təsərrüfatı sahələrinin payı olduqca yüksəkdir. Belə ki, kənd təsərrüfatı 2001-ci ildə ümumi ərazinin 25%-ni və ya 593,9 $km^2$-ni əhatə edirdisə, 2020-ci ildə bu rəqəm 607,8 $km^2$ və ya 24,8% olub. Ərazinin kənd təsərrüfatı məqəsdləri üçün istifadə edilməsində 20 illik periodda 2% və ya 13,9 $km^2$ artması görünür.

b) *Yaşayış sahələri*- Şəki rayonu üzrə ərazinin 2001-ci ildə 9%-i (210.6 $km^2$) yaşayış sahələrinin payına düşürdüsə, 2020-ci ildə bu

rəqəm 13% (311 $km^2$) təşkil etmişdir. 2001-2020-ci illər ərzində ərazidən istifadənin miqyası 100,5 $km^2$ və ya 32% təşkil etmişdir.

c) *Quraq və yararsız torpaqların* sahəsinin azalması müşahidə olunmuşdır. 2001-ci ildə ərazinin 23%-i və ya 547,4 $km^2$-i yararsız sahələr idisə, 2020-ci ildə bu göstərici 489,1 $km^2$ və ya 21% təşkil edib. 2001-2020-ci illər ərzində quraq ərazilərin 58,3 $km^2$ (12%) azaldığı görünür. Əvvəl kolluq sahələrin qırılması və ağacların kəsilməsi hesabına yaranan bu sahələr, son dövrlərdə kolluqların artması ilə özünü bərpa etməyə başladığını görünür.

d) *M*eşə ehtiyyatları kateqoriyyasında meşə sahələrinin artması müşahidə olunur. Belə ki, meşə ehtiyyatları 2001-ci ildə ümumi ərazinin 13%-ni və ya 307,3 $km^2$-ni tuturdusa, 2020-ci ildə 18% və ya 424,1 $km^2$-ni əhatə edib. Meşə ehtiyyatları və bununla bağlı yaşıllıqların sahəsində 28% artım qeydə alınıb ki, bu da iyirmi illik dövrdə 116.7 $km^2$ ərazi deməkdir. Meşə sahəsinin artmasının əsas səbəbləri 2004-cü ildən başlayaraq ərazidə kütləvi ağacların əkilməsi və rayonda qaz xəttlərinin çəkilməsi ilə qazlaşdırılma prosesinin sürətləndirilməsidir.

e) *Qarlı sahələr*. Rayonun Rusiya Federasiyasına yaxın əraziləri qar və buzlaq sahələri ilə örtülmüşdür. Qarla örtülü sahələr 2001-ci ildə ərazinin 5%-ni təşkil edirdi. Lakin 2020-ci ildə bu rəqəm 4%-ə düşüb.

f) *Su hövzələrinin* rayon üzrə dəyişilməsində ciddi artım qeydə alınmışdır. Əgər 2001-ci ildə rayonda ərazinin 27,4 $km^2$-i və ya 1%-i su hovzələrinin payına düşürdüsə, 2020-ci ildə bu rəqəm 2% və ya 42 $km^2$-ə çatmışdır. Təhlil olunan illər ərzində 53% və 14.5 $km^2$ artım qeydə alınıb.

g) *Otlaqlar*. 2001-ci ildə rayon ərazisinin 24%-ni otlaq və örüş sahələr təşkil edirdisə, 2020-ci ildə bu göstərici 17%-ə qədər geriləyib. Ümumilikdə isə iyirmi il ərzində örüşlər 170,9 $km^2$ və ya 30% azalıb.

# NƏTİCƏ

Şəki rayonun təsərrüfat sahələrinin ərazi planlaşdırılmasının turizm təsərrüfatına təsirinin tədqiqi zamanı aşağıdakı nəticələr alınmışdır:

Tədqiqat nəticəsində ilk dəfə olaraq Şəki rayonunun ərazi planlaşdırılmasının turizmin inkişafına təsiri öyrənilmişdir. Rayonda aparılan ərazi planlaşdırılmasının nəzəri və metodoloji aspektləri təhlil edilərək planlamanın əhalinin artması və regional iqtisadi-inkişaf strategiyasına görə aparıldığı müəyyən olunmuşdur. Həmçinin, ərazi planlaşdırılması və turizm təsərrüfatı arasındakı əlaqənin pozitiv, xətti reqressiya olduğu təsbit edilmişdir.

Rayonun iqtisadiyyatının əsasını təşkil edən sənaye və kənd təsərrüfatı turizm sahəsində istifadə olunan istehsal etdikləri məhsullarla bu sahənin inkişafına təsir göstərdiyi müəyyənləşdirilmişdir. Kənd təsərrüfatı məhsullarının istehsal həcmi isə turizm təsərrüfatını yerli əhalinin və turistlərin sayı nəzərə alınmaqla meyvə (121%), üzüm (110%) və süd istehsalı (128%) ilə tam, kartofla 51%, tərəvəzlə 59%, bostan məhsulları ilə 34%, ətlə 48% və yumurta ilə 75%-ni təmin edə bilir.

Sosial və nəqliyyat infrastrukurunun ərazi üzrə planlaşdırılması turizmin təsərrüfatını təmin etməklə yanaşı onun inkişafının əsas göstəricisi hesab olunur. Tədqiqat rayonunda həyata keçirilən tədbirlərə baxmayaraq, ərazidə içməli su problemləri və kanalizasiya şəbəkəsinin tam yaradılması istiqamətində yenə də bir sıra çatışmamazlıqlar mövcuddur. Apardığımız təhlillər nəticəsində Regional İnkişaf İndeksinin analizinin əmsalı Şəki rayonunda 2,5-ə bərabərdir olduğundan tədqiqat ərazisinin bu göstəricilərə görə digər bölgələrdən (Zaqatala (3,2), Qəbələ (3,5 və Balakən 3,1) xeyli geri qalması müəyyənləşdirilmişdir.

Turizm təsərrüfatının gəlirlərinin formalaşmasında əcnəbi turistlərin və mehmanxana otaqlarının sayına görə 2010-2021-ci illərdə gəlirlərin 2,8 dəfəyə qədər azaldığı müəyyən edilmişdir. Rayon üzrə turizmin ekonometrik analizi nəticəsində (Y=-425.5+3.7X1+0.12X2) qiymətləndirmə modelinə əsasən R2=0,4886 əldə olunub ki, bununla da mehmanxana nömrələri və xarici turist amilləri istisna olmaqla, digər

sərbəst göstəricilər sabit saxlanılarsa, turizm gəlirlərini proqnozlaşdırmaq mümkün olur. Regionda turizm təsərrüfatına digər amillərin o cümlədən, qiymət və xidmət səviyyəsi təsir göstərdiyi üçün gecələmə və qonaqlama sayında azalma və turistlərin Qax və Qəbələ rayonlarına doğru istiqamətlənməsi müşahidə olunmuşdur. Şəki şəhərində, Kiş, Abbas, Oxud, Baş Küngüt kəndlərində kirayə evlər turistlərə təqdim olunsa da, otellərlə qiymət fərqinin az olması və bu sahədə tənzimlənmələrin nəzərə alınmaması kənd turizmin inkişafına, eləcə də, mehmanxana gəlirlərinin azalmasına və onun ərazi planlaşdırılmasına mənfi təsir göstərir.

Təbii fəlakətlərin ərazi planlaşdırılması və turizm təsərrüfatına təsiri  analitik iyerarxiya prosesi (AHP) metodu ilə təhlil olunmuş, risk xəritəsi hazırlanmışdır.Rayonun ümumi ərazisinin 13%-i, əhalisinin 3,9%-i və üç yaşayış məntəqəsinin sel riskinin aşağı səviyyədə olduğu müəyyənləşdirilmişdir. Risk səviyyəsinin orta olduğu hissəyə isə kənd təsərrüfatı sahələri ilə yanaşı, turizm təsərrüfatı sahələri də daxil edilir ki, bu da ərazinin 29%-ni, əhalinin 62,8%-ni və Şəki şəhəri və onun 11 inzibati ərazi dairəsini əhatə edir. Riskin yüksək olduğu qrupa isə ümumi sahənin 58%-i, əhalinin 33,3%-i və 20 inzibati ərazi dairəsi daxildir. Tədqiqat nəticəsində turizm sənayesinin 29%-nin selə məruz qaldığı müəyyənləşdirilmişdir.

Şəki rayonunda məsafədən zondlama üsulu ilə 2016-2022-ci illərin peyk şəkillərinin deşifrələnməsi əsasında əhalinin artması və şəhərin genişlənməsi arasında əlaqə öyrənilmiş, kəndlərdən əhalisinin şəhər və şəhər ətrafı ərazilərdə cəmlənməsi və xidmət sahələrinin tikilməsi nəticəsində  yaşayış sahələrinin 14,4 % artması və şəhərin cənub və cənub–şərq istiqamətində genişlənməsi müəyyən olunmuşdur.

“Regionların sosial iqtisadi inkişafı” Dövlət proqramı çərçivəsində həyata keçirilən tədbirlərin ərazidən istifadəyə təsiri 2001 və 2020-ci illərin peyk şəkilləri ilə öyrənilmişdir. Respublikada keçirilən torpaq isahatlarından sonra Şəki rayonunda əhali arasında bölüşdürülən pay torpaqlarının kənd təsərrüfatı məqsədləri üçün deyil, təyinatından fərli olaraq yaşayış məskənləri və sənaye müəssisələrinə, otlaqların əkin sahəsinə, yararsız və quraq sahələrin isə otlaqlar kimi istifadə olması aşkar olunmuşdur.

## Dissertasiya mövzusu üzrə çap olunmuş elmi işlər


1. Ərtünov N.B. (2018). Azərbaycanda tikinti materiallarının yaratdığı ekoloji problemlər. Pedoqoji univesitetin xəbərləri, Riyaziyyat və təbiət elmləri, C.66, No1, səh 117-122.
2. Ərtünov N.B. (2020). Şəki rayonunun sənaye sahələri və onun ərazi təşkili. Coğrafiya və təbii resurslar, №1 (11), səh 49-53. https://journal.geonatres.az/s%C9% (Həmmüəllif: Paşayev, N.Ə,)
3. Ərtünov N. (2022). Şəki rayonunda bitkiçiliyin ərazi təşkili və onun iqtisadi coğrafi problemləri. "Naxçivan" Universiteti. "Elmi Əsərlər". İqtisadiyyat, filologiya, tarix, coğrafiya, pedaqogika və psixologiya, riyaziyyat. 2022, No 4 (28), səh 196-204. https://nu.edu.az/elm-v%C9%99-t%C9%99hsil/elmi-%C9%99s%C9%99rl%C9%99r-jurnal%C4%B1
4. Ərtünov N. (2022). Şəki rayonunda nəqliyyat infrastrukturunun planlaşdırılmasının iqtisadi və coğrafi tədqiqi. Coğrafiyanın müassir problemləri: Elm və təhsilin inteqrasiyası, Beynəlxalq elmi praktiki konfransının materialları, I cild, Bakı, 29-30 Noyabr, ISBN 9789952435900,, 154-161.
5. Ərtünov N.B. (2022). Şəki rayonunda ipəkçiliyin inkişafı və əhalinin məşğulluq probleminin həllində sahənin rolu,. AMEA H.Ə.Əliyev adına Coğrafiya İnstitutu, Azərbaycan Coğrafiya Cəmiyyəti, "Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında təbii təsərrüfat sistemlərinin təşkili və idarəə edilməsi" mövzusunda elmi praktiki konfransın materialları, 102-108.
6. Ərtünov N.B. (2023). Şəki rayonunda taxılçılığın ərazi planlaşdırılmasının iqtisadi-coğrafi tədqiqi. Gənc Tədqİqatçi Elmi Praktiki Jurnal, № 2, 47-53. https://gencalimler.az/az/content/318
7. Artunov N. (2022). Investigation of flooding event impact on territorial planning in the Shaki district. Internatıonal Conference of Young Scientists, "Modern Problems of Earth Sciences". Proceedings, ISBN 978-9941-36-044-2, Publish

House of Iv. Javakhishvili Tbilisi State University, Tbilisi, November, pp 52-54. doi: http://openlibrary.ge/handle/123456789/10279
8. Артунов, Н. (2023) Теоретические аспекты и проблемы территориального планирования (на примере Шакинского района, Азербайджан). I Всероссийской конференции с международным участием, посвященной памяти профессора Михаила Дмитриевича Шарыгина «Пространственная Организация Общества: Теория, Методология, Рактика», 7–11 ноября 2023,Сборник материалов с.107-112, Perm, http://www.psu.ru/files/docs/science/books/sborniki/aprostranstvennaya-organizaciya-obshchestva-teoriya-metodologiya-praktika.pdf
9. Artunov N.B., (2024). To identify the challenges and prospects for the development of tourism using the SWOT method through the analysis of tripadvisor in Shaki district, Azerbaijan// Материалы Белорусского Географического Конгресса К 90-Летию Факультета Географии И Геоинформатики Белорусского Государственного Университета и 70-летию Белорусского Географического Общества Минск, 8–13 апреля. В семи частях Часть 2 Социально-Экономическая География, МИНСК, БГУ, с 310-315, https://elib.bsu.by/handle/123456789/310913
10. Artunov N. B., (2023). Multiple regression modelling: contemporary spatial planning and economic modelling of tourism industry (case study of Shaki district). Journal of the Belarusian State University. Geography and Geology, 2, 80-89. Retrieved from https://journals.bsu.by/index.php/geography/article/view/6071
11. Artunov N. (2023). The current situation of social infrastructure and its territorial planning in the Shaki district (Azerbaijan). In: Geographical Environment and Living Systems, no. 3, pp. 163–174. , https://www.geoecosreda.ru/jour/article/view/1275
12. Artunov, N.B (2023). Flood risk mapping: Using remote sensing technique to identify the influence

of floods on territorial planning (a case study of Shaki district, Azerbaijan)., Ekonomichna ta Sotsialna Geografiya/ Економічна та соціальна географія, 89, DOI: https://doi.org/10.17721/2413-7154/2023.89.53-61
13. Artunov, N.B. (2023). Spatiotemporal analysis of urban sprawling using change detection: a case study of Shaki district, Azerbaijan. Visnyk of V. N. Karazin Kharkiv National University, Series "Geology. Geography. Ecology", (59), 72-82. https://doi.org/10.26565/2410-7360-2023-59-06. (Həmmüəllif: Paşayev, N.Ə, Qasimova, E.E.).



Dissertasiyanın müdafiəsi 23 may 2025-ci il tarixində saat $14^{00}$-da Elm və Təhsil Nazirliyi akad. H.Əliyev adına Coğrafiya İnstitutunda yaradılmış BFD 3.16 Birdəfəlik Dissertasiya şurasının iclasında keçiriləcək.

Ünvan: Az1130, Bakı ş., H.Cavid pr. 33, akad. H.Əliyev adına Coğrafiya İnstitutu.

E-mail: igaz@geo.science.az

Dissertasiya ilə Coğrafiya İnstitutunun kitabxanasında tanış olmaq mümkündür.

Dissertasiya və avtoreferatın elektron versiyaları https://m.igaz.az/az rəsmi internet saytında yerləşdirilmişdir.

Avtoreferat 22 aprel 2025-cü il tarixində zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb: 16.04.2025
Kağızın formatı: A5
Həcm: 37821
Tiraj:100